"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 9 mart tarixli 596 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 21 yanvar tarixli 9 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 1, maddə 62) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin 2.3-cü bəndində "Azərbaycan Respublikasının Nazirlər Kabineti" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiya" sözləri ilə əvəz edilsin.

***Azərbaycan Respublikasının Baş naziri***

***Artur Rasi-zadə***

***Bakı şəhəri, 10 may 2012-ci il***

***№ 111***